# Füzuli ən çox dağıntılara məruz qalmış rayondur, amma biz onu bərpa edəcəyik

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın oktyabrın 17-də Füzuli rayonuna səfəri maraqlı faktlarla zəngin olub. Səfər çərçivəsində dövlətimizin başçısı Füzulinin yenidən qurulması ilə bağlı ciddi addımlar atıb.***



Dövlət başçısı və birinci xanım Füzuli Beynəlxalq Hava Limanında yaradılmış şəraitlə tanış olublar. Onlara məlumat verilib ki, hava limanında bütün tikinti və ətraf ərazinin abadlaşdırılması işləri başa çatdırılıb. Hava limanında görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib.

Hava limanında istənilən tip hava gəmisini qəbul etməyə imkan verən, uzunluğu 3000 metr, eni 60 metr olan uçuş-enmə zolağı istismara verilib. Burada baqaj konveyerlərinin, qeydiyyat sisteminin, VIP zalların, mağazaların, restoranların və digər məntəqələrin işə salınması nəzərə alınmaqla, saatda ən azı 200 sərnişinin buraxılışına imkan verən terminalın tikintisi başa çatdırılıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə də görüşüblər. Dövlət başçısı bildirib ki, Füzuli şəhərinin erməni işğalından azad olunması böyük strateji əhəmiyyət kəsb edib. Şəhər Azərbaycan Ordusunun nəzarətinə keçəndən sonra artıq Şuşa istiqamətinə getmək üçün geniş imkanlar açılıb. Amma Ermənistan tərəfi burada çox güclü istehkamlar, bir neçə xətt istehkamdan ibarət müdafiə xətti qurubmuş. Otuz il ərzində möhkəmləndirilmiş bu istehkamların cəsarətlə yarılması xalqımızın böyük qəhrəmanlığını, fədakarlığını göstərir. Bunu görən düşmənin gözü qorxub. Bu istehkamları canı-qanı bahasına keçmiş qəhrəman əsgər və zabitlərimiz düşmənə Azərbaycan xalqının böyüklüyünü nümayiş etdiriblər. Azərbaycan Silahlı Qüvvələri 44 günlük müharibə zamanı əsl vətənpərvərlik və qəhrəmanlıq göstərib, düşmənin canlı qüvvəsini, texnikasını məhv edərək tarixi ədaləti bərpa edib, Azərbaycanın öz ərazi bütövlüyü təmi olunub.

Prezident qeyd edib ki, Füzuli ən çox dağıntılara məruz qalmış rayondur. Burada bir salamat kənd, bir salamat bina yoxdur. Füzuli şəhəri tamamilə yerlə-yeksan edilib. Füzuli azad olunandan sonra bir bina tapılmayıb ki, ordumuz oraya bayrağımızı sancsın. Amma buna baxmayaraq, dövlət başçısı bildirib ki, Füzuli şəhəri və rayonun kəndləri bərpa ediləcək. Ötən bir il ərzində bu istiqamətdə böyük işlər görülüb: “Azad edilmiş bütün torpaqlarda həyat bərpa olunacaq, vətəndaşlar öz doğma ocaqlarına qayıdacaqlar. Bu bir il ərzində biz çox genişmiqyaslı quruculuq işləri ilə, eyni zamanda, şəhər və kəndlərimizin bərpası ilə də məşğul olmuşuq. Bu proses çox mürəkkəbdir. Burada düzgün planlaşdırma aparılmalı, minalardan təmizləmə işləri görülməlidir. Füzuli azad edilmiş rayonlar arasında minaların sayına görə ən çox çirkləndirilmiş rayondur – yüz mindən çox mina basdırılıb. Biz bütün bu işləri paralel şəkildə aparmalıyıq. Eyni zamanda, Füzuli şəhərinin baş planı, kəndlərin inkişaf konsepsiyası hazırlanıbdır. Birinci infrastruktur layihələri də məhz Füzulidə başlamışdır”.

Azərbaycan liderinin sözlərinə görə, Füzuliyə qısa müddət ərzində yeni yol çəkilib. Hətta Şuşaya qədər Zəfər yolu çəkilib. İndi Füzuli–Şuşa magistral yolunun inşası gedir. Hazırda Füzuli–Hadrut, Füzuli–Cəbrayıl, Füzuli–Ağdam yollarında işlər gedir. Bu gün Füzuli–Ağdam istiqamətində yeni yolun təməli qoyulub. Eyni zamanda, Ağdama gedən qonaqlar, vətəndaşlar Füzuli Beynəlxalq Hava Limanından istifadə edə bilərlər. Yəni, Füzuli Beynəlxalq Hava Limanı Qarabağın hava qapısıdır.

İnanırıq ki, dövlət başçısının rəhbərliyi ilə Füzuli rayonu da, işğaldan azad edilmiş digər şəhər və kəndlərimiz də yaxın vaxtlarda dogma sakinlərini öz qoynuna alacaq.

***Əziz ƏLƏKBƏRLİ,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti .- 2021.- 19 oktyabr.- S.10.